## TAMMƏTNLİ ELEKTRON RESURSLARIN İNFORMASİYA AXTARIŞI SİSTEMİ

*(Milli Kitabxananın iş təcrübəsi əsasında)*

**Aydan Şahmarova**

*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında tətbiq olunan VTLS-VIRTUA sistemi üzrə həyata keçirilən kitabxana proseslərinin avtomatlaşdırılması, tammətnli elektron nəşrlərin sistemləşdirilərək bazada yerləşdirilməsinə, oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanılmasına şərait yaradan və onların təkrar istifadəsinə imkan verən avtomatlaşdırılmış sistem tətbiq olunur. 2000-ci ildə Milli Kitabxana ABŞ səfirliyinin, müəyyən fondların maliyyə dəstəyi ilə ABŞ-ın VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VIRTUA proqramını layihə çərçivəsində əldə etmişdir. Üç illik hazırlıq işləri aparıldıqdan, beynəlxalq treninqlər keçirildikdən və lazımi mütəxəssislərin hazırlanması prosesi başa çatdıqdan sonra 2003-cü ildə elektron kataloqun tərtibi işlərinə başlanılmışdır. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir. 2004-cü ilin martından Milli Kitabxanada digər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir. Lakin bütün bunlar külli miqdarda vəsait tələb etdiyindən, işlər müvəqqəti olaraq dayandırılmışdır. Xeyli hazırlıq və təcrübi işlər aparıldıqdan sonra 2006-cı ilin mayında Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur. Respublikamızda ilk kitabxana saytı və elektron kataloqun təqdimatı beynəlxalq ekspertlərin respublika kitabxana ictimaiyyətinin və mətbuat nümayəndələrinin iştirakı ilə olmuşdur. 2006-cı ilin mayından Milli Kitabxananın saytı vasitəsilə bir sıra beynəlxalq məlumat bazalarında – ABŞ-ın Konqres Kitabxanasının və Rusiyanın Milli Dövlət Kitabxanasının elektron məlumat bazalarında birbaşa axtarış aparmaq imkanı əldə edilmişdir. Milli kitabxanada elektron kataloqun yaradılması işi ilə "Elektron resursların yaradılması" şöbəsi məşğul olur. Elektron kataloqun məlumat bazasına ədəbiyyat 3 mənbədən daxil olur:

1. kitabxanaya daxil olan ədəbiyyat;
2. arxiv şöbəsinə toplanmış və əks xronoloji ardıcıllıqla seçilən ədəbiyyat;
3. kitab verilişi məntəqəsində oxucular tərəfindən qaytarılan və daha çox tələb olunan ədəbiyyat.

Elektron resursların yaradılması şöbəsi tərəfindən 2009-cu ildə 32986 adda Azərbaycan və rus dilində olan cari ədəbiyyatın biblioqrafik yazısı yaradılaraq elektron kataloqun məlumat bazasına daxil edilib. Ümumiyyətlə, bu günə kimi 94757 biblioqrafik yazı, 267142 nüsxə ədəbiyyat elektron kataloqa daxil edilmişdir. 2009-cu il ərzində kitabxananın virtual oxucularının – elektron kataloqdan və elektron kitabxanadan istifadə edən oxucuların (saytdan istifadə edənlər istisna olmaqla) sayı 118452 nəfər, virtual sifarişin xidmətlərindən istifadə edənlərin sayı 329 nəfər olmuşdur. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi 2009-cu ildə 244 kitabın tam mətnini, 8 dövri mətbuat nömrəsini elektron kitabxanaya yerləşdirmişdir.Milli Kitabxananın elektron kataloqundan istifadə etmək üçün www.anl.az saytına daxil olaraq kitabxananın şöbələrinin adları əks olunan siyahıdan "elektron kataloq" sətrinin üzərində düyməni sıxaraq elektron kataloqa daxil olmaq olar. Elektron kataloqdan bir neçə axtarış növü üzrə - 1) sadə axtarış; 2) kombinasiya edilmiş axtarış; 3) başlıqların açar sözü üzrə axtarış; 4) xarici məlumat bazalarından axtarış aparmaq olar.

2018-ci ildə Milli Kitabxanada müxtəlif informasiya materialları elektron resursların-elektron kataloq sisteminin məlumat bazasına köçürülmüşdür. Bunlardan 17118 kitab, 334 dissertasiya, 1206 avtoreferat, 32345 məqalə, 548 dövri mətbuat, 285 kitab məqaləsi, 1348 not, 35 əlyazma notu, 1574 elektron resurs, 7 səsyazma, 6 CD-ROM, 10 kartoqrafik material, 1 audiokitab və 1 film olmaqla 54820 biblioqrafik yazı elektron kataloqun məlumat bazasına daxil edilmişdir.